# Əməkdaşlıq haqqında memorandum imzalanıb

Oktyabrın 1-də Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi ilə Monteneqro Respublikasının Konstitusiya Məhkəməsi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.



Memorandumu Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev və Monteneqro Respublikası Konstitusiya Məhkəməsinin sədri xanım Desanka Lopiçiç imzalayıblar.

Mərasimdə çıxış edən Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev memorandumun imzalanmasının əlamətdar hadisə olduğunu bildirib. Sədr bu sənədin iki ölkənin Konstitusiya məhkəmələri arasında əməkdaşlığın daha da inkişaf etdirilməsinə böyük təkan verəcəyini vurğulayıb. Azərbaycan ilə Monteneqro arasında diplomatik, iqtisadiyyat, turizm və bir sıra digər sahələrdə razılaşmaların imzalandığını qeyd edən F.Abdullayev bunun xalqlarımızın əlaqələrinin daha da inkişafına xidmət etdiyini diqqətə çatdırıb. Sədr məhkəmə-hüquq sahəsində də əməkdaşlığın inkişaf etdirilməsinin dövlətlərimiz üçün böyük əhəmiyyət daşıdığını bildirib.

Azərbaycanın hüquq sisteminin inkişafından danışan Fərhad Abdullayev ulu öndər Heydər Əliyevin müdrik siyasəti nəticəsində ölkədə dövlətçilik ənənələrinin möhkəmləndiyini, ən müasir qanunvericilik bazasının yaradıldığını, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı layihələr sayəsində Azərbaycanın bu gün regionda iqtisadi, sosial və digər sahələrdə lider mövqe tutduğunu qeyd edib.

Ölkəmizin Monteneqro ilə məhkəmə-hüquq sistemi sahəsində əlaqələrinin bundan sonra daha da genişlənəcəyinə əminliyini vurğulayan Fərhad Abdullayev oktyabrın 2-də Azərbaycan Konstitusiyasının 20 illiyi ilə bağlı Bakıda keçiriləcək beynəlxalq konfransda fərdi şikayətlər vasitəsilə hüquq və azadlıqların Konstitusiya Məhkəməsi tərəfindən qorunması mövzusunda hüquqi müzakirələrin aparılacağını bildirib.

Monteneqro Konstitusiya Məhkəməsinin sədri xanım Desanke Lopiçiç iki ölkə arasında Konstitusiya ədalət mühakiməsi sahəsində əməkdaşlığa böyük önəm verdiyini qeyd edib. O, Azərbaycanın və Monteneqronun Konstitusiya məhkəmələrinin beynəlxalq tədbirlərdə də mütəmadi olaraq fikir və təcrübə mübadiləsi apardığını bildirib. D.Lopiçiç Bakıda keçiriləcək beynəlxalq konfransın Azərbaycanın və müxtəlif ölkələrin bu sahədə təcrübəsi ilə tanış olmaq üçün yaxşı fürsət olduğunu söyləyib. Azərbaycan Konstitusiya Məhkəməsi ilə memorandumun imzalanmasından məmnunluğunu bildirən qonaq bu əməkdaşlığın hər iki ölkənin konstitusiya ədalət mühakiməsi sisteminin inkişafına böyük töhfə verəcəyinə əmin olduğunu vurğulayıb.

***AZƏRTAC***